**Bu bir həqiqətdir ki, insan yaşadığı müddətdə həyat yolu müxtəlif insanlarla kəsişir. Bəzi insanlar şansımız, bəziləri isə şanssızlığımız olur. Qarşılaşdığımız yaxşı insanlar da, pis insanlar da bizə həyat təcrübəsi qazandırır. Vacib olan odur ki, yaxşı insanlardan yaxşılıq öyrənək. Bizə yaxşılıq eləyən insanları peşman etməyək. Dar gündə bir-birimizə əl uzadaq. Hər zaman dost qazanmağa çalışaq.**

# Həyatımın çətin dönəmində şansım hesab etdiyim Nəzakət xanım...

İnsanın bəxti, şansı sadəcə iş həyatında, ailə həyatında deyil, dost tərəfdən də gətirəndə, o insanı həqiqətən şanslı insan hesab etmək olar. Bu yazım həyatımın çətin dönəmində qarşıma çıxan, şansım hesab etdiyim Nəzakət xanım Məmmədova haqqındadır.

Nəzakət xanımla tanışlığımız 2020-ci il oktyabrın 15-i, ikinci Qarabağ müharibəsinə təsadüf etdi. Hansı ki, həmin tarixlərdə Ermənistan ordusu döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raket zərbələri endirir, yaşayış evlərinə düşən raketlər həmin evləri tamamilə dağıdır, sakinlərin çox hissəsi böyük dağıntılar altında qalıb həyatlarını itirirdilər. Həmin vaxtlar Gəncə sakinlərinin hər biri ölümün bir addımlığında idi. Hər kəs şəhərə endirilən raket zərbələrindən xilas olmaq, sağ qalmaq üçün yaşadığı yeri müvəqqəti olaraq tərk etmək məcburiyyətində idi. Mən də ailəmi təcili şəhərdən çıxarıb paytaxt Bakıya getməyə çalışırdım. Orada yaşayan dostlarımızdan bizə 1 gün içində kirayə ev tapmalarını xahiş etdim. Lakin, həmin az bir müddətdə heç biri kirayə ev tapa bilmədi. Atalarımız əbəs yerə söyləməyiblər ki, hər işdə bir xeyir var. Dostlarımızdan biri zəng etdi ki, bir xanım var, o evini sizə təmənnasız verəcək, müharibə bitənə qədər həmin evdə qalarsınız. Bu xəbərə ailəlikcə çox sevinsək də, həmin xanımı tanımadığımız üçün necə bir insanla qarşılaşacağımızı da bilmirdik. Buna baxmayaraq təcili yola düşdük, 15 oktyabr tarixində ailəmlə birlikdə Bakıya, bizə verilən həmin ünvana getdik. Həmin ünvanda, bizə verilcək evdə kimsə yaşamırdı. Binanın həyətində ailə dostumuz həmin xanımla birgə bizi qarşıladı. Qara maşından düşən, gözlərindəki eynəyi çıxarıb, üzündə səmimi bir təbəssümlə bizə tərəf yaxınlaşan xanım Nəzakət Məmmədova idi.



Həyatda heç nəyin təsadüf olmadığına hər zaman inanmışam. Nəzakət xanımla tanışlığımızın da təsadüf olmadığına inanıram. Heç tanımadığım, həyatımda ilk dəfə gördüyüm bir xanım bizə ilk öncə evinin, sonra isə ürəyinin qapılarını açdı. Ailəmlə birlikdə bir ay Nəzakət xanımın bizi yerləşdirdiyi evdə qonaq olduq. Günaşır, iki gündən bir Nəzakət xanım nəyəsə ehtiyacımız olub olmadığını soruşmaq üçün bizə baş çəkirdi, tez-tez telefonla zəng edirdi. Doğmaların bir-birinə göstərmədiyi qayğını Nəzakət xanım bizə göstərirdi. Müharibə başladığı bir gündən 27 sentyabr tarixindən hər kəsin gözüyaşlı, ürəyi kövrək idi. Hər gün onlarla, yüzlərlə vətəndaşımızın həlak olduğu, şəhid olduğu xəbərini alırdıq. Nəzakət xanımın oğlu və qızı da həmin vaxt cəbhə bölgəsində idi. Müharibənin qızğın vaxtı cəbhə bölgəsində olan övladlarından hər gün xəbər almağa çalışan bir ananın gözlərindəki həyəcanı, səsindəki titrəkliyi, kövrəkliyi bir ay boyunca seyr etdim. Övladlarından danışanda Nəzakət xanımın gözlərindəki o ifadəni kəlmələrlə izah etməyim qeyri-mümkündür. Nahaq yerə deməyiblər ki, ana müqəddəs varlıqdır. Hər bir övladın Nəzakət xanım kimi anaya ehtiyacı var. Ailəm 20 gün Bakıda qalıb təkrar Gəncəyə qayıtdılar. Mən isə bir müddət daha paytaxtda qalmağa davam etdim. Nəzakət xanım tez-tez məni ziyarətə gəlirdi. Onunla söhbət etmək psixoloqla söhbət etməyə bənzəyirdi. İnsanın qəlbindən keçənləri gözlərindən anlamaq qabiliyyəti var Nəzakət xanımda. Onunla hər söhbətimdə onun həssas, kövrək qəlbi, duyğusallığı məni ona daha da bağlayırdı. Nəzakət xanım artıq mənim üçün bir yad deyildi. O, qısa müddətdə mənə doğmadan da doğma olmuşdur. Söhbət zamanı bir dəfə demişdim ki, Mir Mövsüm Ağanın ziyarətgahına getmək istəyirəm. O, bu istəyimə biganə qalmadı. Bir gün Nəzakət xanım mənə zəng etdi ki, hazırlaş səni ziyarətgaha aparacam, oradan da bağ evimizə gedərik. Xatırlayıram, 9 noyabr tarixi idi, Nəzakət xanım gəlib məni götürdü, birlikdə Mir Mövsüm Ağanın ziyarətgahına getdik, orada çoxlu dualar etdik. Həmin vaxt hamımızın bir arzusu, bir amalı vardı. Müharibənin dayanması, cəbhə bölgəsindəki oğul və qızlarmızın sağ-salamat evlərinə qayıtması. Ziyarətgahdan sonra Nəzakət xanımın bağ evinə getdik. Bağ evində Nəzakət xanımın nəvələri varıydı. Hansı ki, həmin uşaqların anaları da cəbhə bölgəsində idi. Bir ana üçün çox böyük xoşbəxtlikdir ki, onun övladları həm oğlu həm də qızı cəbhə bölgəsində Vətən üçün savaş verir, yaralı əsgərlərimizə kömək edir. Nəzakət xanım xoşbəxt analardandır ki, Vətən üçün o cür övladlar yetişdirib. Əminəm ki, nəvələri də övladları kimi qəhrəman olacaqlar. Bir gecə Nəzakət xanımgildə qonaq oldum. Ən doğma insanımın evindəymiş kimi özümü rahat hiss edirdim. Gözəl vaxt keçirdik. Yemək hazırladıq, film izlədik, doyunca söhbət etdik. Müharibənin nə zaman bitəcəyi haqqında xeyli fikir mübadiləsi apardıq. Həmin gecə bizi eləcə də xalqımızı hansı xoş hadisənin gözlədiyindən isə tamamilə xəbərsiz idik. Artıq 44-cü gün idi ki, hər kəsin yuxusu ərşə çəkilmişdi.

O gecə də gözümüzə yuxu getmirdi. Gözlərimiz hər an sosial şəbəkələrdə idi ki, görəsən bu gün hansı rayonumuzu, kəndlərimizi işğaldan azad etdik?! Gecə təxminən saat 2 radələrində bütün televiziyalarda müharibənin dayandırıldığı xəbəri, cənab Prezidentin Ermənistan və Rusiya ilə 10 noyabr bəyannaməsi imzaladıqları canlı video şəklində yayımlandı. Bu tarixi Zəfərdən, müharibənin dayandırıldığı xəbərindən sonra Nəzakət xanımla sevincimizdən yuxumuz qaçdı. Səhərə qədər bu sevinci dostlarla, qohum və yaxınlarla bölüşmüşük. Səhər saat 9-da isə maşınla evdən çıxıb üzü şəhərə doğru getdik. Əllərimizdə bayraqlar, gözlərimizdə qürur və sevinc... Biz o tarixi Zəfər sevincini Nəzakət xanımla birgə yaşamışıq. 10 noyabr tarixində əllərimizdə bayraq maşınla bütün şəhəri dolaşmışıq. Qürurdan, sevincdən gah ağlayıb, gah da gülmüşük. Əvvəllər biz Nəzakət xanımla iki yad insan idik. Ancaq bugünkü gündə ortaq o qədər xatirələrimiz var ki... Sən demə yad insanların doğmalığı doğmadan da doğma olurmuş. Biz müharibə dövründə birlikdə yaşadığımız ağrılı, acılı günləri, ələlxüsus da 10 noyabr tarixində birgə yaşadığımız o böyük Zəfər sevincini əsla unuda bilmərik. Müharibə Nəzakət xanımla bizi bir-birimizə doğmalaşdırdı. Nəzakət xanım mənə və ailəmə elə bir vaxtda əl uzatdı, yaxşılıq etdi ki, nə bu dünyada, nə də axirətdə mən və ailəm onun yaxşılığını unuda bilmərik.

***Lamiyə İsazadə,***
***"Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident Təqaüdçüsü***